ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

UOT: 364.3

# SOSİAL MÜDAFİƏ MODELLƏRİNİN İNKİŞAFININ ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI PRİZMASINDAN BAXIŞ

Emin Əli oğlu Əlirzayev [1]

## XÜLASƏ

**Tədqiqatın məqsədi -** Məqalədə qlobal sosial-iqtisadi məkanın tərkib hissəsi olaraq sosial müdafiə sistemlərinin qlobal inkişaf xüsusiyyətləri edilir və bu fonda Azərbaycan Respublikasında sosial müdafiə sisteminin struktur təkmilləşməsi ilə bağlı perpsektivə nəzər yetirilir.

**Tədqiqatın metedologiyası -** Tədqiqat işinin hazırlanmasında elmi mülahizələrin verilməsi beynəlxalq tədqiqat nəticələrindən, sahə üzrə milli səviyyədə praktiki idarəetmə təcrübəsi elementlərindən istifadə edilməklə ümumi elmi təhlil metodlarına əsaslanır.

**Tədqiqatın tədbiqi əhəmiyyəti -** Məqalə üzrə çıxarılan nəticələrin Azərbaycanda sosial müdafiənin sistemli və lokal-milli məqsədlərə uyğunlaşdırılmış model-tərtibatının təkmilləşdirilməsi ilə bağlı idarəetmə səviyyəsində islahat əhəmiyyətli məqamlar ehtiva etməsi tədqiqatın praktiki əhəmiyyətini əks etdirir.

**Tədqiqatın nəticələri -** Tədqiqat işinin əsas nəticələri Azərbaycanda sosial müdafiənin kompleks-sistem təkmilləşdirilməsində nəzərə alınması əhəmiyyətli hesab edilən məsələlər və istiqamətlərə işarə edir.

**Tədqiqatın elmi yeniliyi -** tədqiqat işində müəllif tərəfindən beynəlxalq miqyasda sosial müdafiə sistemlərinin inkişafı ilə bağlı əsas xüsusiyyətlərin sistemləşdirilməsi və icmallaşdırılmasının verilməsilə, həmin əsaslar üzərində Azərbaycanda da sosial müdafiənin daha da təkmilləşdirilmiş idarəetmə modelinin qurulması üçün ən aktual hesab edilən əsas problemlərin elmi əsaslandırılmalarla müəyyənləşdirilməsidir.

**Açar sözlər:** sosial müdafiə sistemi, sosial müdafiənin təkmilləşməsi, sosial müdafiə modelləri, sosial müdafiə mexanizmləri, pensiya sistemi

**JEL:** A10, E60, E70, H00, H53; H55; I30; I31; I32; I38

## Giriş.

Müasir dünyada dövlətin sosial siyasətinin əsas alətlərindən biri kimi çıxış edən – sosial müdafiə mexanizmi cəmiyyətdə yerinə yetirdiyi funksiyalardan irəli gələrək dövlətin tənzimləmə mexanizmlərindən birinə çevrilməklə, getdikcə daha çox aktuallıq qazanmaqdadır. Sosial dövlət modellərində isə bu tənzimləmə mexanizmi daha təsiredici rola malikdir.

Sosial müdafiənin dövlət idarəetmə mexanizmi kimi ortaya çıxmasından keçən bir əsrdən artıq olan dövrdə sosial müdafiənin beynəlxalq miqyasda zamanına görə daha irəli iqtisadi inkişafda olan və ya sənayeləşmənin daha da təmərküzləşdiyi areallarda inkişafı ilə bağlı formalaşan təcrübə sonrakı dövrdə qlobal miqyasda dünya ölkələri üçün milli sosial müdafiə sistemlərinin qurulması və əsaslı olaraq təkmilləşdirilməsi üçün əhəmiyyətli əsaslar və meyarlar formalaşdırmışdır.

Bununla belə, hər bir ölkədə sosial müdafiənin həmin ölkənin qlobal sosial-iqtisadi arenada milli maraqlarına, daxili iqtisadi və sosial siyasətinə uyğun çərçivədə elementlərinin nəzərə alınması, tətbiqi ilə inkişafı, bununla sosial müdafiənin ölkə və ya regional miqyasda müəyyən ortaq xüsusiyyətlər kəsb etməklə formalaşması və beləliklə, sosial müdafiənin beynəlxalq rakursdan ortaq və ya mahiyyət baxımından kəsişən xüsusiyyətlər alması ilə ölkələr səviyyəsində regional bənzər əlamətlərlə müşahidə olunan sosial müdafiə sistemlərinin formalaşması və bir növ, modelləşməsi prosesi baş vermişdir.

Bu baxımdan hazırda beynəlxalq səviyyədə sosial müdafiə sistemləri özünün milli və ya yerli xüsusiyyətləri baxımından xüsusi elementlər ehtiva etməsi ilə fərqlənir, eyni zamanda ölkələr arasında digər ölkələrin sosial müdafiə sistemlərinin qurulması və idarə edilməsi ilə

[1]Əsas müəllif/Corresponding author: Emin Əli oğlu Əlirzayev, iqtisad üzrə fəlsəfə doktoru, AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu, alirzayev@gmail.com , OrcID 0000-0001-8622-6905

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

bağlı müsbət və mənfi nəticələrin elmi təhlil mühitində dəyərləndirilməsi bazasında milli sistemlərin daha optimal inkişafına nail olunması üçün də əlverişli imkanlar formalaşır.

Qeyd etmək lazımdır ki, müasir sosial müdafiənin özünün birbaşa əhali ilə bağlı dövlət idarəetmə sahəsi olması, inkişaf üçün elmi bazaya malik olmanı tələb etməsi ilə yanaşı, daim ictimai maraq kəsb edən sahə olmasından irəli gələrək bir çox hallarda sosial müdafiədə nisbətən daha çox uğur əldə etmiş və ya daha yükək rifah səviyyəsində olan ölkələrin sosial müdafiə strukturlarının və onların funksional təcrübəsinin bilavasitə yerli şəraitdə tətbiqilə eyni və ya oxşar uğurların və müsbət nəticələrin əldə oluna bilinəcəyinə dair geniş ictimai stereotiplər də mövcuddur.

Sosial müdafiə modellərinin ayırd edilməsi nəzəri bazanın formlaşdırılması, həmçinin islahatların elmi əsaslandırılması baxımından əhəmiyyət kəsb edir. Bununla ayrı-ayrı ölkələrin sosial müdafiə siyasətləri ilə bağlı təcrübələrinin sistemləşdirilməsi, bu əsasda onların zəif və güclü tərəflərinin müəyyən edilməsi, elmi əsasları olan, risk əsaslı, daha uyğunlaşdırılmış islahatların işlənilib hazırlanması üçün idarəetmə aparatı üçün fundamental mənbə formalaşır.

Qeyd edilənlər fonunda Azərbaycan Respublikasında da sosial müdafiənin çox da uzun olmayan inkişaf yolu keçməsi, beynəlxalq təcrübə nəzərə alınmaqla hazırda sistemin inkişafı üçün qarşıda növbəti məqsədlərin özünü biruzə verməsi, ölkədə sosial müdafiəyə münasibətdə əhali ehtiyacları və sosial baxışların yeni müstəviyə keçməsi kimi məsələlər nəzərə alınmaqla yeni təkmilləşdirilmə yollarının müəyyən edilməsi ilə bağlı elmi əsaslandırılmış yanaşmalar əsasında tədiqatların aparılması olduqca zəruri əhəmiyyətlidir.

Bu çərçivədə bu mövzunun tədqiqat obyekti kimi seçilməsi və işlənilməsi də elmi və praktiki baxımdan aktual əhəmiyyətli hesab edilir.

**Ədəbiyyat icmalı.** Məqalənin yazılması zamanı aparılan tədqiqat seçilən mövzunun Azərbaycan üçün kifayət qədər müasir və ya yeni olmaqla tam hələ ki əhatəli araşdırılmadığını göstərir. Doğrudur ki, bu istiqamətdə internet araşdırmalarımız ötən yaxın dövrdə bu istiqamətin araşdırılmasına artan marağın müşahidə olunduğunu deməyə əsas verir.

Mövzumuz ilə əlaqədar son illərdə də azsaylı elmi yazılardan biri  olaraq, İsaqov (2019) sosial müdafiənin müasir modellərinin əsas xüsusiyyətlərinə dair məqaləsində dünya sosial müdafiə modellərinin xüsusiyyələrinin müsbət və mənfi tərəflərini üzə çıxarmaqla gələcəkdə Azərbaycanda tətbiq imkanlarının araşdırmağa şərait yaratması hədəflənilmişdir. Sosial müdafiə sisteminin meyarlar qrupu və hər qrupa daxil edilən növlər üzrə cədvəl sistemləşdirilməsinin aparılması, həmçinin ayrı-ayrı modellərin fəaliyyət əsasları ilə bağlı əhəmiyyətli məsələlərin müəyyən edilməsi yazının müsbət nəticələri olaraq diqqəti cəlb etsə də, problem mahiyyətli məsələlərin təhlilinə və sözügedən nəzəri əsasların Azərbaycanda tətbiqi imkanlarına dair təhlillərə nisbətən az toxunulmuşdur

Baloğlanov (2025) tərəfindən dünyada sosial müdafiənin innovativ iqtisadi modelləri mövzusunda yazılmış məqalədə müasir sosial müdafiə modellərinin inkişafının növbəti perspektivdə təkcə gəlir tarazlaşdırılması, yaxud yoxsulluğun yumşaldılmasının əsas götürüldüyü ənənəvi əsaslarla deyil, innovativ yanaşmaların artan tətbiqi, xüsusən isə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzərində idarəetmə sistemlərinin rəqəmsallaşdırılma həlləri və yaşıl texnologiyalar vasitəsilə baş verəcəyi əsaslandırılmağa çalışılır. Bu yazıda model kateqoriyası olaraq sosial müdafiənin ölkələr miqyasında təsnifatlaşdırılması nəzərdə tutulmamaqla, ölkələr üzrə əslində sosial müdadiə sistemlərində son rəqəmsallaşma təşəbbüslərinin istiqamətləri barədə aktual istiqamətlərdə söhbət açılır, bununla belə toxunulan məsələlərin problem olaraq yerli kontekstlə əlaqədə nəzərdən keçirilməsinə yer verilmədiyini müşahidə etmək olur.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

Yenihan (2018) sosial müdafiənin strukturlaşmasını 20-ci əsrdə sənayeləşmənin güclənməsi ilə əlaqələndirmiş, eyni zamanda regional bu prosesin regional fərqliliklər göstərdiyini qeyd etmişdir.

Özcan (2021) 19-cu əsrdə sənaye istahesalının təmərküzləşdiyi ölkələrdə dövlət səviyyəsində sosial müdafiənin sığorta prinsipi əsasında gəlirlərin bölüşdürülməsi hesabına yoxsul əhali təbəqəsinin də əhatə olunması siyasətinin həyata keçirilməsinin sosial müdafiənin inkişafında 19-cu əsrin sonlarında Almaniyada Bismark, sonradan 20-ci əsrin ortalarına yaxın dövrdə Beveric tipli ilkin modellərin formalaşması ilə nəticələndiyini vurğulayır.

Kabaş (t.y.) inkişaf etməkdə olan ölkələrdə milli səviyyələrdə sosial müdafiə sistemlərinin inkişafı üçün inkişaf etmiş ölkələrin təcrübəsinin tətbiqinə çalışıldığını, daha çox inkişaf etməkdə olan ölkələrdə əmək bazarı, əmək münasibətləri, gəlir bölgüsü, strukturlaşma, sosial müdafiənin əhatəliliyi, maliyyələşmə problemləri aspektlərindən problemlərin xarakterik olduğunu ayırd edir. Razılaşmaq olar ki, bu yanaşma bu gün də mövcuddur, lakin milli səviyyədə sosial müdafiə sistemlərinin inkişafının modelləşmə ilə bağlı beynəlmiləl xüsusiyyətlər nəzər alınmaqla bərabər, ölkələrdə lokal (yerli) xüsusiyyətlər nəzər alınmadan mümkünsüzlüyü də qəbuledilən strategiya olmalıdır.

Esping-Andersen (1990) mövzu üzrə problemin ümumən əsas ilkin tədqiqatçısı hesab edilməklə, müxtəlif meyarlar əsasında rifah dövlətlərinin sosial modelləşməsini aparmış, bu meyarlara söykənərək üç sosial müdafiə modelini təsnifatlaşdırmaqla ( liberal (bazar əsaslı), mühafizəkar (konservativ və ya korporatist) və sosial-demokrat (universal)), onların əsas xarakterik xüsusiyyətlərini vermişdir. Tədqiqatlar göstərir ki, bu təsnifatlaşma sonradan dünyada vahid bir yanaşma olaraq qəbul edilməmiş, fərqli müəlliflər tərəfindən daha fərqlənən əhatədə və model tiplərinin (adlandırmalarının) verilməsilə təsnifatlaşdırmalar aparılmışdır.

Ülgen (2017) Esping-Andersenin yanaşması üzrə üç modeldən biri olan - sosial demokrat rifah modelinin digər iki model xüsusiyyətlərini özündə birləşdirməsilə, sosial və maliyyələşdirmə əhatəliliyi baxımından universallıq prinsipinin önə çıxardığını vurğulamışdır.

Grigonis və b. (2025), Aymakova (2020), Plyukhina (2022) tərəfindən Rusiya elmi məkanında bu mövzu üzrə tədqiqatlar aparılmaqla sosial müdafiə modellərinin təsnifatlaşması sosial-demokratik, neoliberal, neokonservativ, Beveric neosisistemi adlandırması ilə tərtib edilmişdir. Qeyd etmək lazmdır ki, buna qədərki tədqiqatlarla müqayisədə hər bir modelin meyarlar və xüsusiyyətləri fərqli müəlliflər tərəfindən müxtəlif genişlikdə təsvir edilməsinə baxmayaraq, modellərin aid edildiyi areallar (ölkə nümunələri), demək olar ki, əsasən üst-üstə düşmüşdür.

Antropov (2007), Moreno (2006) kimi müəlliflər hətta Skandinav, həmçinin Cənubi Avropa sosial müdafiə modelləri adlandırmasında da təsnifatlaşdırma aparmış və bu model tiplərinin xüsusiyyətlərini geniş araşdırmışdır.

Dorofeev (2025) müasir şəraitdə əksər hallarda Bismark modelinə üstünlük verilməklə həmrəylik prisnipinə əsaslanan sosial müdafiə modellərində sistemin parametrik xüsusiyyətlərinin əsas olmasına baxmayaraq, onun inkişafının təkcə maliyyə təminatı və maliyyə idarəetməsinin müxtəlif məsələləri ilə deyil, aktual vəziyyətdə demoqrafik mənşəli problemlər, sosial baxışlar, maliyyə bazarının vəziyyəti və s. kimi məsələlərlə əlaqəli olduğunu vurğulamışdır.

Gercheva və b. (2014) beynəlxalq araşdırma nətiəclərinə əsasən sosial müdafiənin formalaşan müasir nəzəriyyəsində əsasən Bismark və Beveric tipli qruplaşdırılmaların aparıldığını, eyni zamanda ayrı-ayrı ölkələrə münasibətdə xüsusiyyətləri baxımından fərqlənən tipoloji qruplaşdırılmaların aparıla bildiyini qeyd etmişdir.

Ismailov (2025) əsas sosial müdafiə modelləri qismində anqlosakson, alman və şərqi-asiya sistemlərininin innovasiyaların dəstəklənməsi aspektində zəif və güclü tərəflərini nəzərdən keçirmiş, Özbəkistan Respublikası nümunəsində xarici təcrübənin özbək müəssisələrinin innovasiya potensialının artırılmasında effektiv istifadəsi imkanlarını araşdırmış, korporativ idaretmənin inkişafı üçün anqlo-sakson, alman, Şərqi Asiya tipologiyası üzrə modellərin müvafiq xüsusiyyətlərinin mənimsənilməsilə təkmilləşdiriləcək hibrid sosial müdafiə modeli əsasında yerli inkişafa təsirlərin reallaşdırıla bilməsi təklif edilmişdir.

İsaqov (2019) da tipoloji xüsüsiyyətlərinə görə xalis sosial müdafiə modellərinə malik ölkələrin olmadığını əsaslandırmışdır.

Binay (2021) 22 ayrı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkəsi nümunəsində 1990-2017-cu illərə dair məlumatlar üzərində ekonometrik yanaşma ilə aparılmış tədqiqatda sosial müdafiə ilə bağlı xərclərin demoqrafik vəziyyətə təsirli olmasını və bunun nəticə etibarilə iqtisadiyyatın genişlənməsinə də gətirb çıxardığını əsaslandırır.

Dragos və Przybytniowski-nin (2022) tədqiqatına əsasən, Avropada sosial sığortanın iqtisadi sabitliyin təmin olunmasında və əhali rifahında mühüm rolu baxımından tədqiq edilməsinin mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunmaqla, Almaniya, Böyük Britaniya, Danimarka, Fransa, İsveç və Finlandiya və digər bəzi ölkələr nümunəsində ümumi elmi təhlil metodları əsasında sosial sığorta fəaliyyəti və bu fəaliyyətin əsaslandığı xüsusiyyətlər ilə bağlı müqayisəli hüquqi nəzəri təhlil aparılmış, bu təhlilin üstünlüklər və çatışmazlıqları ayırd etməyə imkan verməklə sosial siyasətin effektivliyinin qiymətləndirilməsi və sosial dövlət modelini optimal şəkildə formalaşdırmaq üçün əhəmiyyətli olduğu vurğulanılmışdır.

**Materiallar və metodlar.** Tədqiqat mövzusunun spesifikası metodoloji yanaşmaların çərçivəsini müəyyən etmişdir. Tədqiqat zamanı sosial müdafiə sistemlərinin model qruplaşdırılması üzrə beynəlxalq müəlliflərin elmi əsərlərinə istinad edilmiş, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Beynəlxalq Əmək Təşkilatı (BƏT) kimi qurumların rəsmi informasiya resurslarından istifadə olunmuşdur. Azərbaycan üzrə təhlillər isə sahəyə dair milli qanunvericilik aktları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi statistik məlumatları əsasında aparılmışdır. Tədqiqat prosesində ümumi elmi təhlil və kəmiyyət metodlarından istifadə olunmuşdur.

**Nəticələr və müzakirə.** Qlobal miqyasda milli səviyyələrdə sosial müdafiənin sistemli inkişafı ötən yüzilliklə əlaqələndirilir.

Dünyada sosial müdafiə sistemlərinin inkişafı dünya sənaye inqilabından sonra işçi sinfinin müdafiəsinin gücləndirilməsi məqsədilə sistemli mexanizmlərin tətbiqilə əsasən qərb cəmiyyətlərində baş vermiş, onun sürətli inkişafı və beynəlxalq genişlənməsi isə 20-ci əsrdə, xüsusən sosial müdafiənin sistemli formalaşması müxtəlif ölkələrdə özünün struktur inkişafı və təkmilləşməsinin xeyli dərəcədə fərqli onilliklərdə təzahür etməsi ilə baş vermişdir (Yenihan, 2018).

Sosial müdafiə xarakterli təşəbbüslərin əvvəlki dövrlərdə də baş verməsinə baxmayaraq, sosial müdafiənin dövlətin iqtisadi siyasəti səviyyəsində həyata keçirilməsi, eyni zamanda onun sistemli və kompleks şəkildə təşkili şəraitində inkişafı sənaye istehsalının genişlənməsi, işçi sinfinin yaranması, iqtisadi böhranlar, müharibələr və böhranlı vəziyyətlərdən yola çıxılaraq daha da intensivləşmişdir.

Məhz bu səbəblə əlaqələndirilir ki, tarixdə sənaye istehsalının təmərküzləşdiyi ABŞ, İngiltərə, Almaniya kimi ölkələrdə işçilərin xəstəlik, əlillik, yaşlılıq və s. kimi hallarda sosial müdafiəsi ilə bağlı dövlət səviyyəsində kompensativ tədbirləri əhatə edən mexanizmlərin qurulması ilə bağlı erkən təşəbbüslərin ortaya qoyulması məqsədlərinin müvafiq olaraq sosial

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

sığorta əsasında (dövlət sektorunda) işləyən kateqoriyadan əhalinin gəlirlərinin davamlılığının təmin olunmasının prioritetliyini, sosial sığorta və ya dövlət dəstəyi hesabına gəlir bölüşdürülməsilə əhalinin yoxsul təbəqəsinin də sosial müdafiə ilə əhatə olunmasını nəzərdə tutması sosial müdafiənin inkişafında 1883-cü ildə Almaniyada Bismark, sonradan 1941-ci ildə Beveric tipli ilkin modellərinin formalaşmasına gətirib çıxarmışdır (Özcan, 2021).

Sosial müdafiənin qlobal inkişafında 1919-cü ildə qurulmuş və 16 müasir sosial təminat standartını əhatə etməklə beynəlxalq normativ bazanı formalaşdırmış Beynəlxalq Əmək Təşkilatının mandat almasının əhəmiyyətli təsirini qeyd etmək lazımdır. Xüsusən 1952-ci ildə qəbul edilərək sosal müdafiə sistemlərilə bağlı əsas maliyyələşmə və idarəetmə prinsiplərini formalaşdıran 102 nömrəli konvensiya sənədi beynəlxalq səviyyədə üzv ölkələrdə də sosial müdafiə sistemlərinin tərtibi və inkişafında əsas çərçivələri müəyyən etmişdir. Son olaraq isə 2012-ci ildə qəbul edilmiş sosial müdafiə pillələri üzrə tövsiyələrə dair 202 nömrəli standardla sosial sığorta sistemlərində əhatəlilik və adekvatlıqla bağlı getdikcə artan gender, regional, iqlim məsələlərinə münasibətdə boşluqlarla mübarizə aparılması, qeyri-formal məşğulluğun azaldılmasına, o cümlədən istər formal, istərsə də qeyri-formal sektorda işçilərin hüquqlarının daha yaxşı müdafiəsinə yönəlmiş təşviqetmə hədəflənilmişdir. Ölkələr səviyyəsində həyata keçirilən sosial müdafiə siyasətinin inkişafı proseslərində bu kimi amillərin təsiri təkanverici olmaqla yanaşı, milli səviyyədə yerli xüsusiyyətlər nəzərə alınaraq işlənilən siyasət əsasında formalaşan təcrübələr də, belə demək mümkünsə, sosial müdafiə sistemlərinin bəzi hallarda milli modellərinin formalaşması ilə də təzahür etmişdir. Elə bu səbəbdəndir ki, qlobal səviyyədə ayrı-ayrı ölkərə münasibətdə vahid və ya eynitipli bir sosial müdafiə modelinin tətbiqi ilə idarəetmənin təşkili mümkün hesab edilməməkdədir (ILO, 2023).

Müasir şəraitdə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial müdafə sistemlərini sosial sığorta və sosial yardım məqsədli proqramlar olmaqla iki əsas istiqamətdə ifadə etmək olar. Sosial sığorta proqramlarının mahiyyəti etibarilə müxtəlif əhali kontingentləri tərəfindən ödənilən müəyyən sığorta haqları hesabına sosial risklərdən qorunma məqsədli (işslizlik, yaşlılıq, əmək qabiliyyətinin daimi və ya müvəqqəti itirilməsi, sağlamlıq və s.) maliyyələşdirilmələrə əsaslandığını vurğulamaq olsa da, sosial yardım proqramlarının bir qayda olaraq, əhalinin yoxsul təbəqəsinin maddi ehtiyacların qiymətləndirilməsi ilə ehtiyac həddində olan əhali qruplarına maddi yardımların göstərilməsinə yönəldiyini qeyd etmək olar. İnkişaf etməkdə olan ölkələrin çoxunda inkişaf etmiş ölkələrdə əsaslanılan modellərin tətbiqinə çalışılır. Bu ölkələrdə sosial müdafiə sistemləri üçün qeyri-formal sektorun payının çoxluğu, sosial xərclərin ümumi daxili məhsulda (bundan sonra – ÜDM) payının aşağı olması, adambaşına gəlirlərin azlığı və gəlirlərin qeyri-tarazlı bölgüsü, sosial müdafiənin strukturunun natamamlığı, yoxsul təbəqənin sosial müdafiəyə əlçatanlığının aşağı olması kimi problemlər xarakterik xüsusiyyət daşımaqdadır (Kabaş (t.y.)).

Bununla belə, müşahidə etmək olur ki, milli səviyyələrdə sosial müdafiə sistemlərinin eynitipli modellər halında mövcud olduğu nümunələrə də asan rast gəlinməməklə, hər bir ölkənin sosial müdafiə sisteminin həmin ölkənin özünün normativ, mədəni, tarixi, sosial, eyni zamanda siyasi-idarəetmə və digər amillərlə bağlı yerli xüsusiyyətlərinin nəzərə alınması ilə fərqlənən elementlərinin daxil edilməsilə qurularaq inkişaf etməsi baxımından sosial müdafiənin model tərtibatının da qlobal səviyyədə genişlənən təcrübəsinin formalaşmaqda olduğunu söyləyə bilirik. Bu sahədə beynəlxalq səviyyədə elmi tədqiqatlara da kifayət qədər əhəmiyyət verildiyini aydın görə bilirik.

Ümumilikdə, dünya miqyasında milli sosial müdafiə sistemlərinin qabarıq cəhətləri nəzərə alınaraq model baxımından təsnifatlaşdırılmaya yanaşmalarda oxşarlıqlar olduğunu demək mümkün olsa da, bəzi əlamətlərinə görə fərqləndirilən müxtəlif qruplaşdırılmalara rast gəlindiyini qeyd edə bilərik.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

Rifah dövlətləri ilə bağlı əsaslı araşdırmalar aparmış danimarkalı alim Esping-Andersen (1990) tərəfindən aparılmış təsnifatlaşdırılma beynəlxalq səviyyədə bu istiqamətdə tədqiqatların əsası olaraq qəbul edilir. Esping-Andersenin yanaşması əsasən **liberal** (bazar əsaslı), **mühafizəkar** (konservativ və ya korporatist) və **sosial-demokrat (universal)** modellərin ayırılmasını göstərir (Esping-Andersen, 1990). O, liberal modelin əsas xarakterik xüsusiyyətləri olaraq, bazar resurs bölgüsündə aparıcı rol oynamasını, dövlətin minimal rifah səviyyəsinin təmin edilməsinə daha çox diqqət ayırmasını, yardım şəklində transfertlərin əsasən aşağı gəlirli və dövlətdən asılı olan əhali qruplarına istiqamətlənildiyini, gəlir tarazlığının təmin edilməsindən daha çox yüksək yoxsulluğun qarşısının alınmasını müəyyən edir (ABŞ, Kanada və Avstraliya nümunə gətirilməklə). Mühafizəkar və ya korporatist model dövlətin müdaxiləsinin ən gec halda tətbiq edildiyi, təminatda kilsə-ailə-sosial çevrə dəstəyinə etimadın əsas götürülməsi səciyyəvi hesab olunur (Avstriya, Almaniya, Fransa və İtaliya nümunə gətirilməklə).

Onun üçüncü model olaraq ayırd etdiyi sosial demokrat rifah modeli digər iki model üzrə müəyyən xüsusiyyətləri özündə birləşdirməklə, əsasən əhalinin rifahını bazar şərtləri ilə əlaqələndirməyən, maddi vəziyyətindən asılı olamayaraq sosial qruplara onların bərabər hüquqlarına uyğun və universal yanaşmada təminatı nəzərdə tutan, yardımlarla təminat üçün minimal yaşayış şərtlərinin olmasını gözləməyən sistem quruluşuna malik olaraq görülür (İsveç, Norveç və Danimarka nümunə göstərilməklə) (Ülgen və b., 2017).

Bu çərçivədə bəzi müəlliflərin sosial müdafiə modellərini **sosial-demokratik**, **neoliberal**, **neokonservativ**, **Beveric neosisistemi** kimi tiplər ayırdığını da görə bilirik (Grigonis və b., 2025; Aymakova, 2020, Plyukhina, 2022).

- məsələn, əsasən Skandinaviya ölkələrində formalaşmaqla dövlətin sosal müdafiədə əhəmiyyətli rolu ilə xarkterizə olunan və əhali gəlirlərinin, sosial nemətlərin yenidən bölgüsü və minimum həyata səviyyəsinin təmin olunmasının vacibliyi əsas götürülməklə hər bir vətəndaşa istiqamətlənmənin əsas götürüldüyü sosial-demokratik tipli model;
- dövlətin minimal müdaxiləsinin olduğu, işçi və işəgötürənlər arasında münasibətlərdən asılı olmaqla regionlara (ştatlara) və işlərə uyğun olaraq minimum əməkhaqqı normasının tətbiqilə əmək bazarında ixtisaslı və tələb olunan mütəxəssis işinə münasibətdə əməkhaqlarının yüksəlməsinə gətirib çıxaran, eyni zamanda isə qoyulan bu normalarla aşağı ixtisaslı işçilərin minimal sosial müdafiəsinin qorunması ilə ABŞ-da möhkəmlənmiş neoliberal tipli model;
- sosial-demokratik və neoliberal modellərin xüsusiyyətlərini özündə daşımaqla və dövlətin qərarvermə imkanlarını, biznesin sosial müdafiə ilə bağlı məsuliyyətinin mövcudluğunu özündə birləşdirməklə əsasən Qərbi Avropa ölkələrində (Almaniya, Fransa, İspaniya və s.) mövcud olan neokonservativ model;
- Böyük Britaniyada və İrlandiyada mövcud olan və qiymətlərin səviyyəsi ilə əhali gəlirləri balansının qorunmasını dəstəkləyən Beveric modeli hazırda qlobal səviyyədə sosial müdafiə sistemlərinin ümumiləşdirilmiş modellərini formalaşdırmışdır.

Tədqiqatlar əsasında bəzən fərqlənən xüsusiyyətlərilə təsnifatlaşdırmalar da aparıla bilir ki, bu halda da sosial müdafiənin kontinental (Bismark), anqlosakson (Beveric modeli), skandinav modeli, cənubi-avropa modelləri ayırılır.

Böyük Britaniyada və İrlandiyada tətbiq edilən **sosial müdafiənin anqlosakson modelinin əsas xüsusiyyətlərini** - C.M.Keynsin ideyalarından çıxış edərək sosial müdafiədə

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

universallıq prinsipinin əsas tutulması, bu zaman təkcə pensiya deyil, həmçinin sosial xidmət və sosial ödənişlərin, habelə tibbi sığorta xidmətlərinin və ödəmələrinə münasibətdə vahid və ya tarazlı yanaşmanın mənimsənilməsi, bu zaman istehsal və məşğulluqda alıcılıq qabiliyyətli tələbin müəyyənləşdirici rol oynaması, gəlirlərin az gəlirli əhali qruplarına istiqamətlənməklə yenidən bölgüsünün ümumi alıcılıq qabiliyyətini yaxşılaşdırmaqla pula tələbi artırması ideyasının qəbul edilməsi və maliyyələşməsi baxımından həm sosial sığorta, həm də vergi yığımlarına əsaslanması, lakin kontinental modelədən fərqli olaraq sığorta haqları yükünün az olması və sosial yardım mexanizminin aparıcı rol oynaması təşkil edir. Danimarka, İsveç və Finlandiya üçün xarakterik hesab edilən **skandinav sosial müdafiə model**inin **əsas cəhətlərini** - burada sosial müdafiənin, bir növ, bütün əhali üçün dövlətdən sosial ödəmələr və xidmətlər alması imkanlarını ehtiva etməsi, həmin xidmət və ödəmələrin alınması üçün məşğulluq və sığorta haqqı ödənilməsinin şərtləndirilməməsi, əsasən vergi mənbəli gəlirlərin, qismən də işəgötürənlərin və muzdlu işçilərdən toplanılan yığımların maliyyə əsaslarını təşkil etməsi, işsizlikdən sığortanın isə könüllülük prinsipi əsasında həmkarlar ittifaqları tərəfindən idarə edilməsi təşkil edir. Həmçinin sosial müdafiəliliyin əhatəlilik baxımdan zəif, təşkilati-idarəetmə nöqteyi-nəzərdən dəqiqliyin az, sosial müdafiə ilə bağlı vəzifələrin, bir növ, ailə üzvlərindən və qohumlardan da gözləntiləri ehtiva etməklə həyata keçirildiyi, sosial müdafiənin əsasən müəyyən əhali kateqoriyalarının itirilən gəlirlərinin kompensasiyası mexanizmi kimi qəbul edilməklə, eyni zamanda məşğulluğun strukturunda kişilərin xeyrinə gender tarazlığının, sosial xərclərin pensiya və digər sosial müdafiə mexanizmlərinə münasibətdə qeyri-tarazlı bölüşdürülməsinin xarakterik olduğu və nəticədə bəzən keçid mərhələsində olduğu hesab edilən **Cənubi Avropa sosial müdafiə modeli**, misal olaraq, İspaniya, İtaliya, Yunanıstan və Portuqaliyada mövcud olmaqdadır (Antropov, 2007; Moreno, 2006).

Müasir sosial müdafiə sistemlərinin effektiv fəaliyyəti üçün sistemdə sosial müdafiənin aktual problemlərinin və sosial risklərin idarə olunması ilə bağlı maliyyə münasibətlərinin təşkili forması mühüm hesab edilir. Burada maliyyə mənbələrinin dayanıqlı olması, həmin mənbələrin az xərctutumlu yollarla əldə edilməsinə, vəsaitlərin investisiya edilməsi, ehtiyatların saxlanılmasına diqqət yetirilməsi mühüm şərtlərdən hesab edilir. Sosial müdafiə sistemlərinə təsiri böyük olan və onları əhatə edən demoqrafik problemlərin olduğu ölkələrdə sosial problemlərin əsas hissəsinin Bismark modelinə söykənməklə həmrəylik prinsipinə əsaslanan sosial sığorta mexanizmi vasitəsilə həllinin xarakterik olduğu görünməkdədir. Günümüzün sosial müdafiə sistemlərinin maliyyə tərtibatına münasibətdə çox tədqiqatlarda sistemin parametrik xüsusiyyətlərinin təkcə ölkənin ümumi inkişaf səviyyəsi, ümumi daxili məhsulun genişlənməsi, əhali gəlirləri, o cümlədən adambaşına gəlirlər, inflyasiya, məşğulluğun səviyyəsi, ölkənin beynəlxalq ticarət dövriyyəsi və beynəlxalq əmək bölgüsündə yeri və digər bilavasitə makroiqtisadi əsaslı olmamaqla, eyni zamanda ölkənin əhalinin cins strukturu və onun regional paylanması kimi demoqrafik əsaslı, həmçinin ölkədə maliyyə bazarının inkişafı vəziyyəti, büdcə sisteminin miqyası, vergi yüklülüyü, faiz dərəcələri, büdcə defisiti kimi fundamental maliyyə məsələləri, habelə sosial-mədəni baxışlar və onlara uyğunlaşdırılmaqla qurulan normativ çərçivələr və digər çoxşaxəli amillərlə bağlı olduğu müzakirəsiz qəbul edilir (Dorofeev, 2025).

Bu mənada mövzu istiqamətində aparılmış beynəlxalq araşdırmalara da əsaslanaraq sosial müdafiənin müasir nəzəriyyəsində sosial müdafiə modelləri ilə bağlı ümumən Bismark və Beveric tipli qruplaşdırılmaların aparıldığını, eyni zamanda ölkələrin sosial müdafiə modeli tiplərinə görə qruplaşdırılmasına münasibətdə də fərqlənən müəllif təsniftatlaşdırılmalarının olduğunu söyləmək mümkündür (Gercheva və b., 2014).

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

Azərbaycanda isə yerli müəlliflərdən İsaqov (2019) hesab edir ki, müasir şəraitdə dünya ölkələrində hər hansı bir sosial müdafiə modelinin xalis əsaslarla fəaliyyət göstərdiyi lokal sosial müdafiə modeli mövcud olmamaqla və əksər modellər Avropa ölkələrinin təcrübələri nəzərə alınaraq tərtib olunur və simbioz mahiyyətli olaraq fəaliyyət göstərirlər.

Eyni zamanda, mövzu çərçivəsində bu yazıda əks etdirdiyimiz elmi mənbələr üzrə fikirlərin ümumi məzmunu üzrə təhlil əsasında belə bir xüsusiyyəti də ayırd edə bilirik ki, bəzən eyni ölkələr müxtəlif müəllif yanaşmaları ilə fərqli modellərə aid edilir ki, bu da ölkələrin sosial müdafiə modellərinin konkret bir sosial müdafiə modelinə aid edilməsi yanaşmasının özünün kifayət qədər mürəkkəb və müəyyən qədər şərti xarakter daşıdığını deməyə əsas verir.

Baloğlanov (2025) sosial müdafiənin model inkişafında rəqəmsal texnologiyaların tətbiqini xüsusi və aktual əhəmiyyətli məsələlərdən hesab edir. Bununla belə, innovativ yanaşmaların inkişafda artan rolunun olmasını qəbul etməklə yanaşı, resursların optimal bölüşdürülməsini və sosial rifah əhəmiyətli islahatların məqsədyönlü olaraq həyata keçirilməsinin də əhəmiyyətini tədqiqat yanaşması ilə vurğulayır. Belə ki, o, bunu bəzi dünya ölkələrinin nümunəsində sosial müdafiə xərclərinin ÜDM-də payını Azərbaycan üzrə göstəricini də ehtiva etməklə əks etdirir və bu göstəricinin həmin ölkələrlə müayisədə nəzərəçarpan dərəcədə aşağı olduğu fikrini əsaslandırır.

Ismailov (2025) sosial müdafiə modellərindən anqlosakson, alman və şərqi-asiya sistemləri nümunəsində xüsusiyyətlərinin araşdırılması bazasında Özbəkistan Respublikasında innovativ inkişafa təsir imkanlarının öyrənilməsi ilə bağlı araşdırma nəticələrinə əsasən xarici ölkələrdə korporativ idarəetmə modellərinin iqtisadi-hüquqi şərtlərindən asılı olaraq innovativ inkişafa təsrləri fərqli olmaqla, anqlo-sakson modelin innovasiyaların sürətli tətbiqinə və bazar rəqabətində üstünlük qazanmağa imkan verdiyi, alman və skandinaviya modellərinin davamlı inkişafa, sosial məsuliyyətə və uzunmüddətli investisiyalara əsaslandığı, lakin bazar dinamikasına nisbətən yavaş uyğunlaşdığı, Şərqi Asiya modelinin isə texnoloji innovasiyada yüksək nəticələr vəd etdiyi və dövlətlə əməkdaşlığa əsaslandığı, lakin korrupsiya riski və rəqabətə məhdudiyyətlər ehtiva etdiyi, fransız-italiya modelinin milli maraqları qoruduğu və dövlətin iştirakını təmin etdiyi, lakin həddindən artıq bürokratiya səbəbindən səmərəliliyin azalması ehtimalını da özündə birləşdirdiyi nəzərə alınaqla, Özbəkistanın korporativ idarəetmə sisteminə hibrid yanaşmanın tətbiqini, yəni, anqlo-sakson modelin bazar yönümlülüyünü, alman modelinin sosial məsuliyyətliliyini və Şərqi Asiya modelinin texnoloji dəstəyini birləşdirməyi məqsədəmüvafiq hesab etməkdədir .

Müəllif isə hesab edir ki, sosial müdafiənin model olaraq tərtibi, başqa ifadələrlə desək, onun tərkib mexanizmlərinə və funksional əlaqələrinə, bu münasibətlərin düzgün əlaqələndirilməsinə görə sxeminin quruluşu və burada idarəetmənin özünün də ayrıca problem olaraq təşkili sosial müdafiənin nəticələrinin yaxşılaşdırılması üçün vacib əhəmiyyətli məsələ olmasına baxmayaraq, sosial müdafiənin iqtisadi məhsul olaraq inkişafı istənilən halda bilavasitə onun sosial xərclərinin genişlənməsi imkanları ilə əsaslandırıla bilər. Beynəlxalq tədqiqat nəticələri üzrə müşahidələrimiz də göstərir ki, qlobal səviyyədə sosial müdafiəni özlərinin siyasət prioritetləri kimi ən çox qəbul edən Avropa Birliyi arealında sosial rifah halını yaxşılaşdıra bilmiş ölkələrdə sosial müdafiənin idarə olunmasının əsas cəhətlərindən biri – həmin ölkələrdə sosial müdafiə xərclərinin ümumi daxili məhsulda payının digər qrup ölkələrdən əhəmiyyətli dərəcədə çox olması ilə bağlı ola bilər.

Dragos və Przybytniowski (2022) də sığorta haqlarının ÜDM-də payını sosial sığortanın inkişafının göstəricisi olaraq görməklə yanaşı, bu göstəricinin Bismark və Beveric modellərinin üstünlük təşkil etdiyi Avropa ölkələrində ən yüksək səviyyədə olduğunu

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

vurğulayır, Bismark modeli üzərində daha çox dayanmaqla bu sistemin Almaniya, Lüksemburq, Avstriya, İtaliya, İspaniya və s. kimi ölkələrdə qəbul edildiyi və əldə edilmiş həyat səviyyəsinin və keyfiyyətinin, eləcə də sığorta hadisələri baş verdikdə işçinin sosial statusunun qorunması, sığorta yükünün işçilər və işəgötürənlər arasında bölüşdürülməsi, pensiya və müavinətlərin birbaşa əməkhaqqı səviyyəsindən, sığorta stajının müddətindən və sığorta ödənişlərinin səviyyəsindən asılı olması ilə xarakterizə edildiyini qeyd edirlər. Eyni zamanda, Hollandiya, Böyük Britaniya, Fransa və İsveçrə kimi ölkələrdə tətbiq edildiyi hesab edilən - Beveric modelində isə vergi, sosial sığorta və digər qanunu gəlirlərin cəmiyyəti kasıb kontingentindən cəlb olunaraq ən kasıb hissəsinə yardımlar və digər formada yönəldilməsinin sosial müdafiə siyasətinin əsas məqsədini təşkil etdiyi, bunun da əsas məqsədinin yoxsulluqla mübarizə olduğu ifadə edilməklə, eyni zamanda, bu iki sistem arasında fərqlərin mövcud olması ilə yanaşı, sosial müdafiə məqsədlərinin də ümumən ortaq olmasının səciyyəvi hesab edildiyi ifadə edilir.

Qeyd edilənlər nəzərə alnmaqla, sosial müdafiə modelləri dövlətin vətəndaşlarına qarşı öhdəlikləri və resursların bölüşdürülməsi prinsipinə görə bir neçə əsas qrupa ayrılır. Sosial müdafiə modellərini ümumiləşdirilmiş şəkildə dünyada daha geniş qəbul olunmuş dörd model nümunəsində qeyd etməklə, onların ümumiləşdirilmiş xüsusiyyətlərinin qeyd olunmasını elmi-nəzəri və islahatların müəyyən olunmasında metodoloji və praktiki baxımdan əhəmiyyətli hesab edirik.

Beləliklə, qlobal səviyyədə formalaşmış sosial müdafiə modellərinin ümumiləşdirilmiş xüsusiyyətlərini aşağıdakı cədvəllə vermək olar (cədvəl 1.)

**Cədvəl. Sosial müdafiə modellərinin ümumiləşdirilmiş xüsusiyyətləri**

| Sosial müdafiə modeli | Əsas ölkə nümunələri | Xüsusiyyət | Məqsəd |
|---|---|---|---|
| Liberal (anqlo-sakson) model və ya Beveric modeli | ABŞ, Böyük Britaniya, İrlansiya, Fransa, Hollandiya, İsveçrə, Kanada, Avstraliya və s. | - Dövlətin müdaxiləsinin minimum olması;<br>- vergi və ya digər mənbələr hesabına gəlirlərin yenidən bölgüsünün və ya yardımların yalnız ən ehtiyaclı təbəqəyə, ünvanlı şəkildə göstərilməsi. | - Sosial sığortalanma (məcburi və ya könüllü) baxımından fərdi məsuliyyətin ön planda olması;<br>-insanlar özlərini sığortalamağa və özəl xidmətlərdən istifadəyə təşviq edilməsi. |
| Bismark modeli | Almaniya, Avstriya, Lüksemburq və s. | Sosial müdafiə birbaşa iş yerinə və ödənilən sığorta haqlarına bağlıdır. | - Mövcud statusun və gəlir səviyyəsinin qorunması;<br>- pensiya və müavinətlərin şəxsin iş stajı və maaşı ilə mütənasib olması |
| Sosial-demokrat (Skandinaviya) modeli | İsveç, Norveç, Finlandiya, Danimarka və s. | -"Universallıq" prinsipi əsas götürülür; sosial xidmətlər statusdan asılı olmayaraq hər kəs üçün əlçatandır;<br>- maliyyələşmələr əsasən vergilər hesabına təmin olunur. | - Bərabərsizliyin minimuma endirilməsi |

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

| | | | |
|---|---|---|---|
| Aralıq dənizi (Cənubi Avropa) modeli | İtaliya, İspaniya, Yunanıstan, Portuqaliya və s. | Dövlətin rolu nisbətən zəifdir, əsas yük ailə və qohumluq institutlarının üzərinə düşür. | - Sosial müdafiədə kilsə və ailə həmrəyliyindən geniş istifadə olunması. |

**Mənbə: məqalə üzrə məlumatların məzmununa uyğun olaraq müəllif tərəfindən ümumiləşdirilmə əsasında tərtib edilmişdir**

Avropa İttifaqının statistika qurumu olan Avrostat tərəfindən 2025-ci ilin mart ayına əsas iqtisadiyyatların da əhatə olunduğu 20 ölkə nümunəsində açıqlanmış məlumata əsasən, 2023-cü ildə bu arealda sosial müdafiə xərclərinin ÜDM-də payı göstəricisi orta hesabla 19,3 faiz təşkil etmiş, o cümlədən bütün ölkələr üzrə əsas payı yaşa görə sosial müdafiə tutmaqla, Finlandiya, İsveç, Fransa kimi ölkələrdə hətta 25 faizə yaxın hədlərdə göstəricilər qeydə alınmışdır (Eurostat, 2025).
2021-ci ildə 22 İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkəsi nümunəsində 1990-2017-cu illərə dair məlumatlar üzərində ekonometrik metodlarla aparılmış digər bir araşdırma nəticələrinə əsasən sosial müdafiə ilə bağlı xərclənmələr əsasında demokratik şəraitin də iqtisadiyyatın genişlənməsinə təsirli olduğu qənəati əsaslandırılmışdır (Binay, 2021, s. 421).

Beləliklə, sosial müdafiənin ölkə modelləri lokal şəraitdə strateji-siyasət məqsədlərindən asılı olaraq müxtəlif elementlərin daxil edilmiş olması ilə fərqlənmələr göstərir və belə bir ümumi nəticə çıxarmaq olur ki, milli sosial müdafiə sistemlərinin model tipologiyasına görə təsnifatlaşdırılması, o cümlədən milli səviyyədə də bu təsnifatlaşdırılmanın aparılması sistemin fəaliyyətinin təmin olunmasında əsaslanılan əsas meyarların, bütün idarəetmə aspektləri üzrə şərtlərin və məqsədlərin spesifikasından irəli gəlir (şəkil 1).

**Şəkil. Sosial müdafiə sistemlərinin model tipologiyası əsasında təsnifatlaşdırılmada əsaslanılan elementlər**




**Mənbə: Şəkil yazının cari hissəsi üzrə ümumi təhlil və mülahizə nəticələrinə əsasən müəllif tərəfindən tərtib edilmişdir**

Belə nəticəyə gəlmək olar ki, sosial müdafiə sistemləri üzrə model təsnifatlaşdırılması təkcə yuxarıda əks etdirilən elementlər üzərində deyil, onlarla əlaqədə müxtəlif sosial müdafiə sahələrinin idarə olunması və ya sosial müdafiə istiqamətləri üzrə xidmət göstərilməsi ilə bağlı bütün qərar qəbulu proseslərinin yerli özünəməxsusluqlarla birgə tipoloji qruplaşdırılmasına kompleks yanaşmanı əks etdirir.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

Azərbaycanın gənc hesab edilməklə, institusional və struktur aspektində formalaşmaqda olan sosial müdafiə sisteminin model tərtibatı barədə fikir yürütsək, onu Bismark tipli modelə yaxınlığını qəbul etməklə yanaşı, qismən neokonservativ və ya (nisbətən daha çox) liberal modelin müəyyən xüsusiyyətlərini özündə ehtiva edən qarışıq sistem kimi də xarakterizə edə bilərik. Hesab edirik ki, bu hibrid model tipinə yaxınlığın əsasında ölkədə dövlət sosial sığorta sisteminə əsaslanan sosial müdafiə strategiyasının əsas xətt olaraq götürülməsi, dövlətin tənzimləmə imkanlarına, həmçinin əmək münasibətlərinə, xüsusən əmək fəaliyyətinə (muzdlu işə) və sığortaya cəlb olunma məsələlərinə yüksək status və əhəmiyyət verilməsi kimi cəhətlər dayanır (Bu nəticəyə gətirib çıxaran əsaslarla bağlı mülahizələrin daha da genişləndirilməsi Azərbaycan Respublikasında sosial müdafiə modelinin təkmilləşdirilməsi problemlərinin digər araşdırmada tədqiqat obyektinə alınması ilə nəzərə alına bilər).

Nəticə etibarilə, təklif əhəmiyyətli olmaqla, hesab edirik ki, Azərbaycanda sosial müdafiə sisteminin idarəetmə modeli olaraq təkmilləşdirilməsi mexanizmləri qismində bəzi məsələlərin prioritet olaraq nəzərə alınması müsbət nəticələr verə bilər:

Ölkələr üzrə sosial müdafiənin inkişafının müəyyən elementləri üzrə müsbət qabaqcıl nümunələrinin müşahidə olunmasının digər bir ölkədə eynilə və uyğunlaşdırılma aparılmadan tətbiqi şəraitində hər zaman müsbət nəticələrin əldə olunmasına zəmanət verməyəcəyinin, bu baxımdan konkret sosial müdafiə modelinin, o cümlədən Azərbaycan şəraitində təkmilləşdirilməsi məqsədilə tətbiqinin yerli sosial və iqtisadi xüsusiyyətlər, sosial-iqtisadi göstəricilər, eyni zamanda strateji hədəflər, xüsusən də mövcud olan və sistemin hazırda inkişafına mane olan (mövzu çərçivəsində toxunduğumuz) problemlər nəzərə alınaraq real mühit şərtlərinə uyğunlaşdırılmaqla müsbət nəticələr verə biləcəyinin idarəetmə yanaşması olaraq diqqətədə saxlanılması vacibdir.

Sosial müdafiə sisteminin təkmilləşməsinə model tipologiyası baxımından yanaşma özünü təşkilati tərəfləri ilə yanaşı, gəlirlərin yenidən bölüşdürülüməsində rolu baxımından da göstərir. Sosial müdafiə xərclərinin ÜDM-də payı ilə bağlı yuxarıda qeyd etdiyimiz beynəlxalq göstəriciləri və rəsmi statistika əsasında hesablamalarımıza əsasən Azərbaycanda təxminən son 10 ildə (2015-2024-cü illərdə) sosial müdafiə (təminat istiqaməti həmçinin nəzərə alınmaqla) istiqamətinə ayrılan xərc miqyasının xərclərin ÜDM-də payı göstəricisinin orta hesabla 5-7 faiz ətrafında dəyişdiyini nəzərə alaraq, hesab edirik ki, sosial müdafiənin gücləndirilməsi üçün büdcə mexanizmləri vasitəsilə sosial müdafiəyə yönəldilən vəsaitlərin həcminin əhəmiyyətli dərəcədə artırılması zəruridir.

Bütün hallarda Azərbaycanda sosial müdafiəyə yönəldilən xərclərin artırılması imkanlarının davamlı və əhəmiyyətli islahatlılıq olaraq qəbul edilməsi yalnız sosial ədalətin prinsipinin gözlənilməsi şəraitində, başqa sözlə, sosial ədalətli və iqtisadi əsaslı olaraq yenidən bölgü şəraitində sosial müdafiə sisteminin ümumən inkişafı üçün təkmilləşmələr vəd edir ki, bu fəlsəfənin uzunmüddətli qəbul edilməsinin perspektivdə müsbət nəticələr vəd etdiyi fikrindəyik.

Azərbaycanda sosial müdafiənin əsas sütunu olan pensiya təminatında maliyyə vəsaitlərinin effektiv istifadəsi, sosial kontingentlərə münasibətdə daha tarazlı və daha ədalətli bölgüsünün dərinləşdirilməsi üçün tədbirlər görülməsi, bu məqsədlə pensiya təminatında güzəştli əsaslarla pensiya təyinatı məsələlərinə həssas yanaşılmaqla bu qəbildən pemsiya təminatı imkanlarının minimuma endirilməsi və bu əsasda yüksək məbləğli pensiyalarla median pensiya arasında differensiasiyanın minimum səviyyələrə gətirilməsi aktual əhəmiyyətlidir: perspektivə münasibətdə xüsusən muzdla işləyən ən geniş işçi qüvvəsini ehtiva edən (eyni zamanda yüksək əməkhaqqı olmayan) təhsil və səhiyyə sektorlarına münasibətdə bu, daha vacibdir.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1079

**Yekun nəticə.** Qeyd olunan təkliflər fonunda ümumiləşdirilmiş əsas nəticələr aşağıdakı istiqamətləri əhatə edir:

- Ümumilikdə, hesab edirik ki, sosial müdafiə sistemlərinin model tipologiyası bazasında mənsubiyyəti barədə yanaşmalarla tanışlıq praktiki olaraq müvəffəqiyyətli hesab edilən hər hansı konkret milli sosial müdafiə sisteminin bütün elementlərinin nəzərdən keçirilməsi və bu əsasda onların yerli (ölkə) nümunəsində tətbiq imkanlarının nəzərdən keçirilməsilə müsbət nəticələr əldə edilməsi üçün imkanlar açması baxımından mühüm əhəmiyyətlidir;
- Hesab edirik ki, Azərbaycanın sosial müdafiə modelinin struktur təkmilləşdirilməsinin daha çox Beveric və Skandinav (sosial-demokratik) modellərinə xas meyllərlə və elementlərlə genişləndirilməsi mövcud sosial müdafiə siyasətinə də uyğun olmaqla perspektivdə müsbət nəticələr verə bilər;
- Sosial müdafiə moelinin gücləndirilməsi üçün ilk növbədə dövriyyəyə cəlb edilə bilməmiş sosial (əmək) və maliyyə resurslarının sosial müdafiə sisteminin idarəetmə sferasına cəlb edilməsi zəruridir: bu, ilk növbədə qadın əməyi üzrə cəlb olunmamış əmək potensialının, eyni zamanda qeyri-formal məşğulluqdan qaynaqlanan maliyyə-resurs itkisinin məhdudlaşdırılmasını nəzərdə tutmalıdır;
- Azərbaycanın sosial müdafiə modelinin inkişafı özünü hazırda olduğu kimi, böyük ölçüdə təkcə pensiya təminatı üzərində deyil, sosial müdafiə mexanizmlərinin çeşidinin və sosial müdafiə xidmətlərinin genişləndirilməsi bazasında göstərməlidir (pensiya təminatının özünün də illərdir ki, birpilləli olaraq qalması baxımından bu istiqamətlə də bağlı əsaslı irəliləmələr zəruridir);
- Azərbaycanda sosial müdafiə xidmətlərinin göstərilməsi ilə bağlı elektronlaşmanın geniş tətbiqini sosial müdafiənin inkişafının müasir və zəruri amillərindən biri olaraq görməklə, zəruri hesab etməyimizə baxmayaraq, hesab edirik ki, bu tendensiya, sistemin maliyyə imkanlarının artırılması və uzunmüddətli perspektivə daha da dayanıqlı hala gətirilməsi ilə bağlı idarəetmə təşəbbüslərilə müqayisədə təkmilləşdirilmə tədbiri olaraq uzunmüddətli effektə malik addımlar kimi qəbul edilə bilməz.

## ƏDƏBİYYAT


1. Antropov, V. V. (2007). Ekonomicheskie modeli sotsial’noy zashchity naseleniya v gosudarstvakh ES. Mirovaya ekonomika i mezhdunarodnye otnosheniya, (10), 26–33. https://www.econ.msu.ru/cmt2/lib/a/886/File/antropov.pdf
2. Aymakova, P. M. (2020). Zarubezhnyy opyt sotsial'nogo obespecheniya naseleniya [Foreign experience of social security of the population]. Aktual'nyye issledovaniya, (22), 127–130. https://elibrary.ru/item.asp?id=44318976
3. Baloğlanov, V. V. (2025). Dünyada sosial müdafiənin innovativ iqtisadi modelləri. Tikintinin iqtisadiyyatı və menecment, 31(2), 462–468. https://timjurnal.az › 2025/12 › baloglanov-vuqar https://timjurnal.az/uploads/2025/12/baloglanov-vuqar.pdf#:~:text=M%C3%BCasir%20sosial%20m%C3%BCdafi%C9%99%20modell%C9%99ri%20iqtisadi%20s%C9%99m%C9%99r%C9%99liliyi%20v%C9%99%20sosial%20%C9%99dal%C9%99ti%20bir%20arada%20t%C9%99min%20etm%C9%99y%C9%99%20y%C3%B6n%C9%99lmi%C5%9Fdir. https://doi.org/10.58225/tim.2025-1-462-468
4. Binay, M. (2021). OECD ülkelerinde sosyal güvenlik harcamalarının ekonomik büyümeye etkisinin dinamik panel veri analizi ile incelenmesi. Sosyal Güvenlik Dergisi, 11(2), 414–422. https://dergipark.org.tr/en/pub/sgd/article/1049488

5. Dorofeev, M. L. (2025). Parametric features of financial and investment models of social security: Methodological aspect. Proceedings of the Southwest State University Series Economics Sociology and Management, 15(1), 182–196. https://doi.org/10.21869/2223-1552-2025-15-1-182-196
6. Dragos, C.M., & Przybytniowski, Ja.W. (2022). Social insurance in Europe: A comparative legal study. European Chronicle, 7(1), 5-12. doi: 10.59430/euch/1.2022.05. https://echronicle.com.ua/index.php/home/article/view/23
7. Esping-Andersen, G. (1990). The three worlds of welfare capitalism. Polity Press.
8. Eurostat. (2025). Government expenditure on social protection. https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Government_expenditure_on_social_protection
9. Gercheva, G., & Levitskiy, M. L. (2014). Natsional’nye modeli sotsial’noy politiki i organizatsiya sotsial’noy zashchity naseleniya v stranakh ES. Prikladnye ekonomicheskie issledovaniya, 4(4), 10–13. https://cyberleninka.ru/article/n/natsionalnye-modeli-sotsialnoy-politiki-i-organizatsiya-sotsialnoy-zaschity-naseleniya-v-stranah-es/viewer
10. Grigonis, V. P., Nemova, N. Y., & Talyanin, V. V. (2025). Modeli sotsial'nogo gosudarstva v zarubezhnykh stranakh [Models of the welfare state in foreign countries]. Agrarnoye i zemel'noye pravo, (5), 47–50. https://cyberleninka.ru/article/n/modeli-sotsialnogo-gosudarstva-v-zarubezhnyh-stranah
11. International Labour Organization. (2023). 100 years of social protection: The road to universal social protection systems and floors (Vol. 2). https://www.ilo.org/sites/default/files/wcmsp5/groups/public/%40ed_protect/%40soc_sec/documents/publication/wcms_894190.pdf
12. Ismailov, A. R. (2025). Xorijiy mamlakatlar korporativ boshqaruv va innovatsion rivojlanish modellarining qiyosiy tahlili. Innovation Science and Technology, 1(10), 34–40. https://www.ist-journal.uz/index.php/IST/article/download/269/240
13. İsaqov, N. (2019). Sosial müdafiənin müasir modellərinin əsas xüsusiyyətləri. İpək Yolu, (2), 92–104. https://www.au.edu.az/upload-files/menu/ipekyolu/2019_2/10_saqovN.pdf
14. Kabaş, T. (t.y.). Dünyada sosyal güvenlik ve sosyal yardım sistemlerinin karşılaştırılması. https://www.researchgate.net/profile/Tolga-Kabas/publication/371904599_Dunyadaki_Sosyal_Sigorta_Ve_Sosyal_Yardim_Programlarinin_Karsilastirilmasi-Taslak_Makale_Calismasi/links/649b272ab9ed6874a5df1020/Duenyadaki-Sosyal-Sigorta-Ve-Sosyal-Yardim-Programlarinin-Karsilastirilmasi-Taslak-Makale-Calismasi.pdf
15. Moreno, L. (2006). The model of social protection in Southern Europe. Revue française des Affaires sociales, (5), 73–95. https://shs.cairn.info/revue-francaise-des-affaires-sociales-2006-5-page-073?lang=fr
16. Özcan, S. (2021). Sosyal güvenlik kavramı ve Türkiye’de sosyal güvenlik sistemi, 41–44. https://www.researchgate.net/profile/Sibel-Oezcan-2/publication/379573468_Sosyal_Guvenlik_Kavrami_ve_Turkiye'de_Sosyal_Guvenlik_Sistemi/links/660fb2dc390c214cfd361d43/Sosyal-Guevenlik-Kavrami-ve-Tuerkiyede-Sosyal-Guevenlik-Sistemi.pdf
17. Plyukhina, A. A. (2022). Sotsial'noye strakhovaniye: Opyt zarubezhnykh stran [Social insurance: Experience of foreign countries]. Innovatsii, (53), 1248–1254. https://www.elibrary.ru/download/elibrary_48280589_85937173.pdf

18. Ülgen, G., & Özalp, L. F. A. (2017). Refah rejimleri sınıflandırma çalışmaları: Cinsiyet boyutları. Marmara Üniversitesi İktisadi və İdari Bilimler Dergisi, 39(2), 639–658. https://dergipark.org.tr/en/download/article-file/402213
19. Yenihan, B. (2017). Bir sosyal politika aracı olarak sosyal güvenlik: Dünya'da ve Türkiye'de gelişimi üzerine bir inceleme. Yönetim Bilimleri Dergisi, 15(30), 177–196. https://dergipark.org.tr/tr/pub/comuybd/article/534475

## MAIN PECULARITIES OF THE DEVELOPMENT OF SOCIAL PROTECTION MODELS AND A VIEW FROM THE PRISM OF THE REPUBLIC OF AZERBAIJAN

## SUMMARY

**The purpose of the research -** The article describes the global development features of social protection systems as an integral part of the global socio-economic space and, against this background, considers the perspective on the structural improvement of the social protection system in the Republic of Azerbaijan.
**The methodology of the research -** The provision of scientific considerations in the preparation of the research work is based on general scientific analysis methods using international research results and elements of practical management experience at the national level in the field.
**The practical importance of the research -** The fact that the results drawn from the article contain important points for reform at the management level regarding the improvement of the model-structure of social protection in Azerbaijan, adapted to systemic and local-national goals, reflects the practical significance of the study.
**The results of the research -** The main results of the research work indicate the issues and directions that are considered important to consider in the complex-system improvement of social protection in Azerbaijan.
**The scientific novelty of research -** is that the author systematizes and summarizes the main features of the development of social protection systems on an international scale, and on the basis of these principles, identifies the main problems considered most relevant for the establishment of a more improved management model of social protection in Azerbaijan with scientific justifications
**Keywords:** social protection system, improvement of social protection, social protection models, social protection mechanisms, pension system
**JEL:** A10, E60, E70, H00, H53; H55; I30; I31; I32; I38

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ МОДЕЛЕЙ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ И ВЗГЛЯД С ПРИЗМЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

**Цель исследования -** В статье описываются глобальные особенности развития систем социальной защиты как неотъемлемой части глобального социально-экономического пространства и, на этом фоне, рассматриваются перспективы структурного совершенствования системы социальной защиты в Азербайджанской Республике.
**Методология исследования -** Научные соображения при подготовке исследовательской работы основаны на общенаучных методах анализа с использованием результатов международных исследований и элементов практического опыта управления на национальном уровне в данной области.
**Важность исследовательского приложения -** Практическая значимость исследования отражает тот факт, что результаты, полученные в статье, содержат важные моменты для реформы на уровне управления в отношении совершенствования модели-структуры социальной защиты в Азербайджане, адаптированной к системным и локально-национальным целям.
**Результаты исследования -** Основные результаты исследовательской работы указывают на вопросы и направления, которые считаются важными для рассмотрения при комплексном совершенствовании системы социальной защиты в Азербайджане.
**Научная новизна исследования -** заключается в том, что автор систематизирует и обобщает основные особенности развития систем социальной защиты в международном масштабе и на основе этих принципов выявляет основные проблемы, считающиеся наиболее актуальными для создания более совершенной модели управления социальной защитой в Азербайджане, с научным обоснованием.

**Ключевые слова:** система социальной защиты, совершенствование социальной защиты, модели социальной защиты, механизмы социальной защиты, пенсионная система
**JEL:** A10, E60, E70, H00, H53; H55; I30; I31; I32; I38

*Məqalə daxil olmuşdur: 02.03.2026*
*Təkrar işləməyə göndərilmişdir: 11.03.2026*
*Çapa qəbul edilmişdir: 30.03.2026*

*Дата поступления статьи в редакцию: 02.03.2026*
*Отправлено на повторную обработку: 11.03.2026*
*Принято к печати:30.03.2026*

*The date of the admission of the article to the editorial office: 02.03.2026*
*Send for reprocessing: 11.03.2026*
*Accepted for publication: 30.03.2026*